**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**BAKI DÖVLƏT UNİVERSİTETİ**

*Əlyazması hüququnda*

**SEVİL DÜNYAMİN QIZI HÜSEYNOVA**

# ƏDƏBİYYATDA TARİXİ VƏ MÜASİR GERÇƏKLİYİN BƏDİİ İNİKASI PROBLEMİ (SEYFƏDDIN DAĞLININ YARADICILIĞI ƏSASINDA)

**5716.01 –– Azərbaycan ədəbiyyatı**

**Filologiya üzrə fəlsəfə doktoru elmi dərəcəsi almaq üçün təqdim edilmiş dissertasiyanın**

# A V T O R E F E R A T I

**BAKI - 2015**

Dissertasiya Bakı Dövlət Universitetinin Müasir Azərbaycan ədəbiyyatı kafedrasında yerinə yetirilmişdir.

**Elmi rəhbər**: *filologiya elmləri doktoru, professor*
**Tofiq Hüseyn oğlu HÜSEYNOV**

**Rəsmi opponentlər:** *filologiya üzrə elmlər doktoru, professor*
**Asif Heydər oğlu RÜSTƏMLİ**

*filologiya üzrə elmlər doktoru, professor*
**Fəridə Ramiz qızı SƏFİYEVA**

**Aparıcı müəssisə:** **Azərbaycan Dövlət Pedaqoji Universitetinin Azərbaycan ədəbiyyatı tarixi kafedrası**

Müdafiə «_23___» _09__ 2015-ci il saat «___»-də Bakı Dövlət Universiteti nəzdində filologiya üzrə elmlər doktoru və fəlsəfə doktoru dissertasiyalarının müdafiəsini keçirən D.02.181 Dissertasiya Şurasının iclasında olacaqdır.

Ünvan: AZ 1148, Bakı, Z.Xəlilov küçəsi, 23, Bakı Dövlət Universiteti, əsas bina, II mərtəbə, Videokonfrans otağı.

Dissertasiya ilə Bakı Dövlət Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferat «___» ____________ 2015-ci ildə göndərilmişdir.

**D.02.181 Dissertasiya Şurasının elmi katibi, filologiya üzrə elmlər doktoru, professor:** **T.H.HÜSEYNOV**

## İŞİN ÜMUMİ SƏCİYYƏSİ

**Mövzunun aktuallığı.** Ədəbiyyat və incəsənətin təkamülü yolunda mütərəqqi ənənələrin əhəmiyyətli rolu vardır. Hər bir sənətkarın yaradıcılıq axtarışları və yenilikləri bu inkişafı daha da sürətləndirir.

Məlumdur ki, müasirlik yalnız mövzularda, janrlarda, qəhrəmanlarda deyil, mütərəqqi ideyaların təbliğində, qlobal problemlərin göstərilməsində, bədii obrazların canlandırılmasında və səciyyələndirilməsində özünü göstərir. Hər bir konkret bədii obraz, personaj bir növ konkret zaman kəsiyində cəmiyyətin ayrı-ayrı üzvlərinin geniş mənada portretidir. Bədii obraz cəmiyyətin ən mühüm keyfiyyətlərini özündə cəmləşdirir və ümumiləşdirir.

Bu baxımdan da Seyfəddin Dağlının yaradıcılıq rəngarəngliyi, eyni zamanda özünəməxsusluğu, özəllikləri ilə diqqəti cəlb edir və onun zəngin yaradıcılığının araşdırılmasını aktuallaşdırır.

Seyfəddin Dağlının yaradıcılıq dövründəki Azərbaycan ədəbiyyatı özünün bir sıra kəskin ziddiyyətlərinə baxmayaraq, bütövlükdə götürüldükdə, XX əsr ədəbiyyat tariximizdə mühüm yer tutur. Onun yaradıcılığını əvvəlki stereotip baxışlardan, naqis metodoloji yanaşmadan azad surətdə obyektiv tədqiq obyektinə çevirmək, bu istiqamətdə ciddi araşdırmaların aparılması ədəbiyyatşünaslıq elmimizin qarşısında duran vacib vəzifələrdən biridir.

**Mövzunun tədqiq tarixi.** Seyfəddin Dağlının müxtəlif janrlarda yazdığı əsərlər ədəbi mühitdə həmişə maraqla qarşılanmış, ədəbi tənqidin diqqətindən kənarda qalmamışdır. Seyfəddin Dağlının əsərləri haqqında Xəlil Rza Ulutürk, Süleyman Rüstəm, İlham Rəhimli, Məsud Əlioğlu, Elmira Abbasova, C.Səfərov, M.Əsgərov, Z.Salmanova, Rəfail Nağıyev, Xeyrəddin Qocayev, Etibar Babayev, Ramiz Heydər, Nahid Hacızadə və b. mətbuatda tənqidi, tədqiqat xarakterli yazılarla çıxış etmişlər. Tədqiqat işində mövzunun əhatə olunması üçün bütün bu və ya digər yazılardan istifadə edilmiş, onlara münasibət bildirilmişdir. Bütün bunlarda Seyfəddin Dağlının əsərlərinə dair fikirlər və mülahizələri söylənilmişdir. Yazıçının əsərlərinin ideya-məzmunu və bədii-estetik xüsusiyyətləri dəyərləndirilmişdir. Amma indiyədək yazıçı haqqında elmi-filoloji və nəzəri cəhətdən diqqəti cəlb edən müstəqil və geniş tədqiqat işi aparılmayıb. Görkəmli yazıçının ədəbi-bədii irsi evində saxlanılan arxivində toxunulmamış qalmışdır və öz tədqiqatını gözləyir.

S.Dağlı elə yazıçılarımızdandır ki, onun yaradıcılığı ciddi tədqiqata layiqdir. Məqsədimiz də bu irsi öyrənmək və onun əhəmiyyətli cəhətlərini

oxucu kütləsinə çatdırmaqdır. Beləliklə, ədəbiyyatşünaslığımızda mövcud olan bir boşluğu doldurmaq mümkündür.

**Tədqiqatın məqsəd və vəzifələri**. Tədqiqatın əsas məqsədi görkəmli Azərbaycan yazıçısı Seyfəddin Dağlının yaradıcılığı əsasında ədəbiyyatda tarixi və müasir gerçəkliyin bədii inikası probleminin özəlliklərini araşdırmaqdan ibarətdir. Bunun üçün aşağıdakı məsələlərə xüsusi diqqət yetirilmişdir:

- Seyfəddin Dağlı yaradıcılığını, ədəbi-bədii materialları əsasında ədəbiyyatda tarix və bədiilik, sənət və gerçəklik məsələlərini müasirlik kontekstində araşdırmaq;

- Yazıçının bədii irsinin mövzu, problematika və sənətkarlıq məsələlərini elmi-nəzəri təhlil süzgəcindən keçirib, milli ədəbi-bədii və mədəni-mənəvi proseslərdə onun yerini və rolunu müəyyənləşdirmək;

- Seyfəddin Dağlı bütün yaradıcılığı boyu bir sıra mövzu, problem və ideyalardan ayrıla bilməmiş, vaxtdan-vaxta həmin ideyaların üzərində müxtəlif səpgidə, müxtəlif məzmun və janrlarda yenidən işləməli olmuşdur. Yazıçının əksər əsərlərindən bu cəhət ana xətt kimi keçmişdir. Ədibin yaradıcılığının bu xüsusiyyətini, bununla əlaqədar bir sıra mühüm cəhətləri araşdıraraq təhlilini vermək, onların ədəbi aləmdə əks-səda doğurmasının səbəblərini, ədəbi-bədii prosesə təsir gücünü və səviyyəsini araşdırıb dəyərləndirmək;

– konkret ədəbi-bədii və elmi nəzəri faktlar əsasında yazıçının tədqiq və təhlilə cəlb edilmiş əsərlərinə ədəbi tənqidin münasibətini qiymətləndirmək;

– yazıçının yaradıcılığında insan-cəmiyyət münasibətlərinin məzmununu, sosial, mənəvi-estetik mahiyyətini açmaq; bədii-psixoloji təhlilin prinsip, üsul və metodlarını üzə çıxarmaq; pyeslərindəki sənətkarlıq, forma-üslub xüsusiyyətlərini müəyyənləşdirmək;

– Seyfəddin Dağlının müasir mövzulu pyeslərində, məişət dramlarında sosial aspektin açıqlanmasına, sosial mühit probleminə müəllifin baxışını, milli xüsusiyyətlərin və keyfiyyətlərin verilməsini araşdırıb aydınlaşdırmaq;

– satirik əsərlərində tənqid və ifşa hədəflərini müəyyənləşdirmək, bu əsərlərdə müəllifin etik və estetik mövqeyinin bədii inikas üsullarını müəyyənləşdirib dəyərləndirmək.

**Tədqiqatın elmi yeniliyi.** Seyfəddin Dağlının yaradıcılığı ilə əlaqədar problemlərə müxtəlif tədqiqat işlərində müəyyən istiqamətdə və səviyyələrdə toxunulsa da, bütün bunlar indiyədək xüsusi tədqiqat obyekti kimi ayrıca öyrənilməmişdir. Təqdim olunan dissertasiya isə bu sahədə ilk

tədqiqat işidir və onun elmi yeniliyi də bundadır.

Materialın özündən doğan bəzi məqamların ənənəvi yanaşma üsulları ilə deyil, müasir, sərbəst tədqiqat imkanından çıxış edərək təhlil edilməsi də yenilik kimi təqdim oluna bilər.

Seyfəddin Dağlının əsərləri haqqında müxtəlif sənət və söz adamları, tənqidçi və yazıçılar müxtəlif zamanlarda, müxtəlif mətbuat orqanlarında maraqlı fikir və mülahizələrlə çıxış etmişlər. Seyfəddin Dağlının bütün yaradıcılığı prosesində daim izlənən, oxunan və sevilən yazıçı olmuşdur. O, ölkəmizdə mövcud olan maraqlı ədəbiyyat ocaqlarının biri ilə bağlı olmuşdur. Bu bağlılıq onun istedadının formalaşmasına, yaradıcılıq inkişafına misilsiz təsir göstərməmiş deyil. S.Dağlının ədəbi prosesdə tutduğu yer, doğurduğu rəy, həm də xeyli dərəcədə bununla bağlıdır. Yazıçıdan yadigar qalan ədəbi-bədii irs haqqında deyilənlər, yazılanlar etiraf etmək lazımdır ki, heç də onun yaradıcılığının bütün cəhətlərini əhatə etmir. Yazıçının irsinin, sözün tam mənasında, bütün genişliyi ilə elmi-filoloji təhlilinə böyük ehtiyac var. Bu sahədə müdafiəyə təqdim edilən bu dissertasiya ilk təşəbbüslərdən biri kimi qiymətləndirilə bilər.

**Tədqiqatın elmi-nəzəri və metodoloji əsası**nı realist sənətə dair bədii-estetik təlim təşkil edir. Realizm bədii əksetdirmə üsuluna həsr olunan ən yeni tədqiqatlarda irəli sürülən müddəalar dissertasiyanın metodoloji əsasının formalaşdırılmasında mühüm yer tutur.

Tədqiqatda müasir Azərbaycan və dünya ədəbiyyatşünaslığının elmi-nəzəri təcrübəsinə istinad edilmişdir. Elmi-tədqiqat işində tipoloji–müqayisəli təhlil metodundan istifadə edilmişdir.

**Tədqiqatın obyekti və predmeti.** Seyfəddin Dağlının çoxsahəli bədii irsi, o cümlədən onun nəsr əsərləri və komediyaları tədqiqatın obyektini təşkil edir. Digər tərəfdən, həmin dövr Azərbaycan bədii nəsri və komediyaları ilə əlaqədar problemlərlə bağlı araşdırmalar, tənqid və ədəbiyyatşünaslıq materialları tədqiqatın obyektinə daxil edilir. Tədqiqat predmetini isə Seyfəddin Dağlının yaradıcılığında tarixi və müasir gerçəkliyin bədii inikası problemi təşkil edir.

**Dissertasiyanın elmi-təcrübi əhəmiyyəti.** Tədqiqatın nəticələrindən Azərbaycan ədəbiyyatı tarixinin ən yeni dövrünün yazılmasında, orta və ali məktəb dərsliklərinin, tədris proqramlarının, metodik vəsaitlərin hazırlanmasında istifadə oluna bilər. Eyni zamanda, gələcəkdə bu sahədə aparılacaq araşdırılmalarda, müxtəlif tipli tədqiqat işlərində də təqdim olunan dissertasiyanın tezislərindən istifadə oluna bilər.

Dissertasiyada qaldırılmış bir sıra məsələlər ədəbi-tənqidi fikir tariximizin müəyyən mərhələsinin bu və ya digər dərəcədə səciyyələrini

ehtiva etdiyi üçün bu istiqamətdə aparılan tədqiqat işlərində istifadə oluna bilər.

**Tədqiqatın aprobasiyası.** Dissertasiya işi Ədəbiyyat üzrə Əlaqələndirmə Şurasında qeydiyyatdan keçmiş, Bakı Dövlət Universitetinin Müasir Azərbaycan ədəbiyyatı kafedrasında hazırlanaraq yerinə yetirilmişdir. Dissertasiyanın əsas müddəaları elmi-nəzəri konfranslardakı məruzələrdə, seminarlarda və elmi nəşrlərdə çapdan çıxmış məqalələrdə aprobasiyadan keçmişdir.

**Dissertasiyanın quruluşu.** Dissertasiya giriş, üç fəsil, nəticə və ədəbiyyat siyahısından ibarətdir.

## TƏDQİQATIN MƏZMUNU

«Giriş»də mövzunun aktuallığı, elmi yeniliyi, məqsəd və vəzifələri, tədqiqi tarixi, metodoloji əsası, nəzəri-praktik əhəmiyyəti, aprobasiyası və s. haqqında yığcam danışılmışdır.

Dissertasiyanın I fəsli «**Tarixin həqiqətləri və yazıçı mövqeyinin müasirliyi**» adlanır. Bu fəsil üç bölmədən ibarətdir.

I fəslin birinci bölməsi **«Sənət və gerçəklik müasirlik kontekstində**» adlanır. Həyat hadisələrinin, gerçəkliklərinin ədəbiyyatda dərhal öz dolğun ifadəsini tapması bir növ təbii bir hal olub, dünya ədəbiyyatı qanunauyğunluqları fonunda izah oluna biləcək bir hadisədir. Tarixin dönüş nöqtələrində həyatın bütün məqamları üçün deməyə sözü olan sənətkarlar, onlar üçün qeyri-standart olan yeni ictimai-tarixi-siyasi mühitdə artıq bu sözləri özlərinin yaşadıqları həyat həqiqətləri kimi təqdim edə bilmirdilər. Təkcə ona görə yox ki, həyatın bütün məqamlarını yaşamaq mümkün də deyil; ona görə ki, onların standart məqamlar üçün yarayan qavrayış mexanizmi artıq burada kara gəlmir. Ona görə də bu ədəbiyyat estetik hissiyyat ilə həyati yaşantıların sərbəst çulğalaşdığı məqamın nəticəsi kimi meydana çıxır.

Bu proseslə yanaşı, ədəbiyyatşünaslıqda «bədii tarixilik», «tarixi mövzu» anlayışlarının yeni mərhələdə bədii-estetik, fəlsəfi-bədii tərəfləri meydana çıxdı. Tənqiddə göstərildi ki, müasir bədii-estetik mərhələdə tarixə estetik münasibət dəyişib və tarixi mövzunun dərki öz sadəliyindən uzaqlaşaraq «bədii tarixilik» sferasına daxil olub. Bu o deməkdir ki, «tarixilik» təkcə tarixi mövzuda yazılmış əsərlərin keyfiyyəti kimi yox, müasirliyin bədii dərki prinsipi kimi də əsas götürülməli və bu tipli bədii əsərlərin təhlilində estetik qiymətləndirmə vahidi olmalıdır. Çünki tarixi mövzuların bədii şərhində elə mərhələlər olub ki, tarixi xronologiyaya

sədaqət, ona ciddi əməl etmək əsas götürülüb.

Sonra isə belə bir prinsip ortaya gəldi ki, indi hər hansı bir formada olursa-olsun tarixi öyrənmək azdır, indi tarixi dərk etmək, müasir mənəvi və ideoloji səviyyədən qiymətləndirmək daha zəruridir.

Beləliklə, tarixi fakt ədəbiyyatın bədiilik sehri ilə estetik keyfiyyət kəsb edir, poetik tarixilik yaranır, həm də bu, müasirliyin özünüdərkinə xidmət edən əsas estetik amilə çevrilir. Bu cəhət müasirliklə tarixiliyin arasında zaman məsafəsini azaldır, tarixiliklə müasirliyin arasında daxili əlaqə yaradır.

Ədəbiyyat elmi tarixiliyi təkcə tarixi janrda yazılmış əsərlərin xüsusiyyəti kimi birtərəfli başa düşmür və burada «yaddaş» anlayışına tez-tez müraciət olunduğunu görürük. İnsan, Tarix, Zaman qarşılıqlı poetik düşüncənin predmetinə çevrilir, ilkinliyə, əcdada qayıdış və bu qayıdışda şəxsiyyətin, xalqın özü bu günə gətirilir.

Burada əsas prinsip ədəbiyyatın assosiativ enerjisinin "tarixin yaddaş"ına əsaslanmasıdır. Elə tarixi detallara müraciət olunur ki, ədəbiyyatda bu detallar tarix haqqında tam təsəvvür yarada bilir.

Ədəbiyyatda tarixiliyin canlandırılması ideya-məzmun, üslub və formaca müxtəlif olsa da, lirik fikir əhval-ruhiyyə tərzinin rəngarəngliyində öz əksini tapsa da, ən əsası odur ki, insan, insanilik tarixi-ictimai şəraitin doğurduğu mühitdə, məişətdə, tarixi zaman axınında götürülüb mənalandırılır.

Zaman duyumu, zamanlar arasında olan əlaqənin tapılması, vaxt rakursunun nizama salınması tarixə müraciətdə poetik təfəkkürün qarşılaşdığı əsas sənətkarlıq çətinlikləridir. Müasir mövzuda yazanlardan fərqli olaraq tarixi mövzuya müraciət edən müəlliflərin əlində müəyyən dövr haqqında oturuşmuş fikir, tarixi şəxsiyyət və şərait haqqında dəqiq parametrlər olur və bu tarixi həqiqətlər xalqın keçmişi, indisi və gələcəyi ilə əlaqədar müqayisə üçün imkan yaradır.

Ədəbiyyatda tarixiliyin mühüm keyfiyyətlərindən biri də odur ki, o müasirliyin dərkinə, bizim günlərin perspektiv imkanlarını aşkarlamağa kömək edir. Beləliklə də, müasir şəxsiyyət ədəbiyyatda tarixi şəxsiyyət ilə qovuşur, ondan nəsə əxz edir, götürür, öz insanlıq vəzifəsini yenidən yaddaş kontekstində dərk edir.

Tarixiliyin, tarixi mövzuya müraciətin elə spesifik cəhəti vardır ki, bu, epik janrda özünü daha yaxşı göstərə bilir. Lakin müəyyən tarixi obrazlar, detallar, faktlar, cizgilər ədəbiyyatda öz əksini tapırsa və məsələnin əksəriyyəti oxucunun tarixə bələdliyinə, assosiasiya enerjisinə etibar edilirsə, deməli, bədii ədəbiyyatda tarixi təcəssümün imkanları xeyli

genişlənir. Keçmiş daha çox məlum faktlardan ibarətdir və bu faktları "soyuqqanlılıqla" bədii mühakiməyə çəkmək mümkündür.

Məlumdur ki, tarixi hadisələr dəyişməsə də, tarixə bədii-estetik münasibət dəyişkən ola bilir və onun bədii şərhi müasir ideoloji-mənəvi tələblərdən asılıdır; burada tarixi məsafə, zaman distansiyası götürülür, müasir gözlə, ağılla tarixi hadisələrin yenidən, təkrarən bədii şərhinə ehtiyac artır. Elə bu cəhət tarixiliklə müasirliyin sənətdə dialektik əlaqə və münasibətini zəruriləşdirir və meydana çıxarır, tarixiliyin müasirliklə əlaqəsini aydınlaşdırır. Məhz tarixi yaddaşa münasibətin bu dəyişkənliyinə görə hər bir mərhələdə müəyyən, tarixi hadisəyə yenidən qayıtmaq ehtiyacı yaranır. Yəni hər bir dövrdə, mərhələdə hər bir sənətkarın özünün tarixə yeni baxışı, yeni görüşü əmələ gəlir.

Bəzən hətta ədəbi tənqid də ədəbi inkişafın sürətindən geri qalır. Akademik Kamal Talıbzadə bu münasibətlə yazırdı: "Nəzəri hazırlığın zəifliyi onlara imkan vermir ki, istər tənqidlərini, istər təriflərini elmi şəkildə sübut etsinlər, mülahizələrini ictimai rəy səviyyəsinə qaldıra bilsinlər. Məlumdur ki, professional tənqidçinin məqaləsi ilə oxucu təəssüratı elə bu nöqtədə bir-birindən ayrılmalıdır. Ancaq belə fərq bəzən nəzərə çarpmır, tənqidçinin mülahizələri öz şəxsi çərçivəsindən yuxarı qalxmır".[1]

Müasirlik və ədəbi prosesdən bəhs edərkən yazıçı-tənqidçi Elçinin deyimi də maraqlıdır: "Bu bir aksiomdur ki, ədəbi-bədii prosesə real təsir göstərmək üçün yazıçı kimi tənqidçinin də ideya-estetik, elmi-nəzəri səviyyəsi yüksək olmalıdır… Bütövlükdə tənqidimizdə fikir genişliyi, təfəkkür vüsəti, yaradıcılıq psixologiyasının dərinliyinə varmaq bacarığı çatışmır, tənqidimiz bəhs etdiyi bədii predmetin, dövrün, psixologiyanın fəlsəfəsini açmaqda çətinlik çəkir".[2]

Seyfəddin Dağlının Cəfər Cabbarlının ömür yoluna həsr etdiyi «Bahar oğlu» romanı dissertasiyanın ikinci fəslinin «**Seyfəddin Dağlının yaradıcılığında tarixi mövzu**» adlanan ikinci bölməsində təhlil olunur. Ədəbiyyatımızda mühüm hadisə olan bu roman haqqında haqlı olaraq qeyd olunur: «... Seyfəddin Dağlı Cabbarlının həyatını öyrənmək üçün xeyli zəhmət çəkmiş, böyük sənətkarın həyat və mübarizəsinin bilavasitə şahidi "olmuş bir sıra insanlar ilə görüşmüş, canlı isti xatirələrdən, keçmiş mətbuatdan, arxiv sənədlərindən, tarixi faktlardan istifadə etmiş, hətta alim-

---

[1] K.Talıbzadə. Tənqidimiz haqqında qeydlər. "Ədəbiyyat və incəsənət" qəz.. 1963, 21 dekabr

[2] Elçin. Ədəbiyyatda tarix və müasirlik problemi. (Azərbaycan ədəbi-tarixi prosesinin nəzəri tədqiqi əsasında). Bakı: 1997, s. 28-29

tədqiqatçılara məxsus zəhmətdən belə boyun qaçırmamış, Cabbarlının əzəmətli dramaturjisini səbir ilə, təmkin ilə öyrənmişdir».[1]

Romanda C.Cabbarlının ədəbiyyat aləmində ilk addımlarından, onun məktəb illəri, səhnə ilə ilk tanışlığı, məşhur faciə aktyoru H.Ərəblinski ilə ünsiyyət bağlaması, səhnəyə sonsuz həvəsi və məhəbbəti unudulmaz bədii lövhələrlə əks olunmuşdur.

Böyük sənətkarımız Cəfər Cabbarlının ömür yolunu əks etdirən bu əsəri yazarkən müəllif ədibin yaradıcılığına aid olan bütün çap olunmamış əsərlərindən də istifadə etmişdir. XX əsrin əvvəllərində Azərbaycanda baş verən ictimai-siyasi hadisələri müəllif Cəfər Cabbarlının həyat yolu ilə əlaqədar işıqlandırmışdır. "Bahar oğlu" ruhu, əməlləri və ictimai idealları ilə xalqına möhkəm tellərlə bağlı olan böyük bir sənətkara, qüdrətli dramaturqa və sadə vətəndaşa - Cəfər Cabbarlıya verilən simvolik addır. Müəllif roman boyu Cəfər Cabbarlının şəxsi həyatı ilə ictimai əqidəsinin vəhdətindən doğan və dramaturqun qısa, lakin şərəfli ömür yolu ilə həmahəng olaraq qabarıq tərzdə səsləşən həmin simvolik mənanı ardıcıl surətdə izləyir.

Seyfəddin Dağlı bədii dilə tam yiyələnmiş sənətkardır. Bu xüsusiyyət "Bahar oğlu" romanında xalq həyatının, xüsusilə bakılılara məxsus bir sıra adət və ənənələrin, coğrafi və yerli koloritlə zəngin səhnələrin canlı təsvirində tam aydınlığı ilə əks etdirilir. Əsərdə həyatı məşəqqətli keçən bir sıra zəhmətkeş insan surətləri yaradılmış və bunlar C.Cabbarlı obrazı ilə əlaqələndirilmişdir. Seyfəddin Dağlı çalışmışdır ki, Cəfər Cabbarlının həyat yolunu işıqlandırarkən onun əsərlərinin həyatdan necə bəhrələndiyini göstərsin. Məsələn, Cəfər Cabbarlının ilk mətbu əsəri olan "Bahar" şeirinin necə qələmə alınmasını müəllif məharətlə göstərə bilmişdir. Bundan başqa, Seyfəddin Dağlı əsərdə "Üstünə" rədifli şeirin, "Almaz", "1905-ci ildə", "Yaşar" kimi dramların da necə yaranmasını göstərməklə Cəfər Cabbarlının ürək çırpıntılarını, ülvi arzularını əks etdirmiş, onun xarakterini açmışdır.

Səhv olaraq sovet dövrünün tərənnümü kimi qiymətləndirilən bu son üç əsərdə daha mühüm hadisələrə toxunulmuşdur ki, onların üzərindən ötəri keçmək mümkün deyil. Əsərdə XX əsrin əvvəllərində Azərbaycan xalqının keşməkeşli həyatı bir tərəfdən xaricdən Bakının neft mədənlərinin iyinə axışıb gələn harın ağaların, digər tərəfdən isə erməni "qardaşlarımızın" günahsız kütlələrin başına açdıqları min bir oyunların şahidi oluruq. Bütün bu oyunların qurbanı isə hüququ əlindən alınıb, bir

[1] X.R.Ulutürk. Bahar oğlu haqqında // Ədəbi tənqid. Bakı: Mütərcim, 2003, s. 658-668

yandan fars, digər tərəfdən rus, başqa bir tərəfdən ingilis tapdağında əzilib, dili, mədəniyyəti, tarixi oğurlanıb, saxtalaşdırılan, sərvəti gəmilərlə, qatarlarla xaricə daşınan, özü isə bir parça çörəkdən ötrü başqalarının qapısında qulluqçuluq edən, balalarını dolandırmaq üçün və dan yeri ağarmamış bir qarın çörəkpulu qazanmaq üçün bütün ömrünü zillətdə keçirən aşağı təbəqənin nümayəndələri olur.

Mövzusu yaxın tarixdən götürülmüş bu əsərdə Seyfəddin Dağlı XX əsrin əvvəllərində Azərbaycanda baş vermiş ictimai-siyasi hadisələri rus-ingilis münaqişəsini, Azərbaycan Demokratik Respublikasının yaranması və ikiillik fəaliyyətini, Nuru paşanın başçılığı ilə türk qoşunlarının Azərbaycana köməyə gəlməsini, sovet qoşunlarının yenidən Azərbaycanı işğal etməsini, yerli əhalinin işğalçılara qarşı müqavimətini, Cənubi Azərbaycan problemi və digər tarixi fakt və həqiqətləri canlandırmağa çalışmışdır. Əsər tarixi roman janrının tələblərinə tam cavab verməsə də, ictimai-tarixi məzmunu ilə diqqəti cəlb edir.

Görkəmli ədəbiyyatşünas alim N.Paşayeva yazır: «Roman janrı qədər insanın daxili ehtiyac və hissiyyatını, xarakter və səciyyəsini zəngin və çoxplanlı şəkildə təsvir edən ikinci bir janr mövcud deyildir. Bu ona görə belədir ki, roman ayrıca bir janr kimi həm də özündə, daxilində bütün digər janrların daxili təcrübəsini əridərək ümumiləşdirmişdir. Bu, belə deyək ki, obyektiv bir hadisədir».[1]

"Bahar oğlu"nun ikinci məziyyəti budur ki, onun müəllifi çətinlikdən qorxmayan, xalqı, Vətəni düşündürən məsələləri həll etməyə girişən cəsarətli bir yazıçıdır. Cəfər Cabbarlı kimi böyük bir sənətkarın həyat və fəaliyyətini qələmə almaq Azərbaycan xalqının ictimai-siyasi və mədəni inkişafında ən mühüm mərhələlərdən birini göstərməyi qarşıya məqsəd qoymaq deməkdir.

Seyfəddin Dağlı "Bahar oğlu" romanında Cabbarlını idealizə etməmiş, yaradıcılığının ilk dövründəki əsərlərində zəifliklərini, büdrəmələrini və bunlara qarşı onun özünün çıxışlarını, cəhdlərini də göstərmişdir.

"Bahar oğlu" romanı barədə fikirlərimizi yekunlaşdırsaq, deməliyik ki, indiki halında bu əsər C.Cabbarlı haqqında böyük sənətkarın obrazını canlandırmaq sahəsində ilk təşəbbüslərdən biri, ilk bədii nəsr nümunəsi kimi qiymətləndirilə bilər.

**«Müasir gerçəklik və bədii həqiqət»** adlanan üçüncü bölmə müharibə mövzusunda yazılmış «Şirin düz» romanının təhlilinə həsr olunub. 1941-1945-ci illər müharibəsindən sonra zəhmət meydanlarına

[1] N.Paşayeva. Insan bədii tədqiq obyekti kimi. Bakı: Qızıl Şərq mətbəəsi, 2003, s. 107.

atılan insanların taleyi, Azərbaycanda şoran torpaqların yuyulması, ictimai həyatda gedən yeni dəyişikliklər, cəmiyyətdəki bəd əməlli adamlarla amansız mübarizə, ərini itirmiş gəlinlərin həssas qəlblərindəki ağrı, övladlarını cəbhəyə yola salmış anaların ürək ağrıları, gənclərin həyat eşqi və yeni arzuları və s. «Şirin duz» romanının özəyini və məğzini təşkil edir. Zəhmətkeş xalqın dinc əməyə bəslədiyi sonsuz ümid və inam, saysız-hesabsız fəlakətlərə səbəb olan dağıdıcı müharibələrə nifrət, xarici hücumlara qarşı müdafiə qüdrətini yüksəltmək, azadlıq və istiqlaliyyət uğrunda fədakarlıqla vuruşmaq, vətənpərvərlik, əməksevərlik, halal zəhmət, maddi nemətlər yaradan qızıl əllər bu romanın ana xəttindən ayrılan şaxələr kimi əsərin ideya-məzmununu zənginləşdirir, zamanın aktual çağırışlarına cavab verir.

Müharibə ərəfəsində Yer Quruluşu İnstitutunu bitirib Abşeronun Samur-Dəvəçi kanalı ərazisində bircə il işləyən Çinar müharibəyə – faşistlərlə döyüşə yollanır. İstehkam qoşunları sırasında Qafqaz dağlarından Oder sahillərinə qədər ağır döyüş yolu keçib evinə qayıdan Çinarı balaca qızı Fidan və “ana” deyə çağırdığı İsmət xanım gözləyir. İsmət xanım Çinarın qaynanasıdır. Çinarın arvadı isə həyat yoldaşı müharibədə olarkən qızını, körpə Fidanı anasının üstünə atıb, başqa kişi ilə qaçır. Çinar cəbhədən qayıdandan sonra şoran torpaqların əkinə yararlaşdırılması ilə maraqlanır və Muğana təyinat alır. Onun ən böyük arzusu Muğan düzünü əkinə yararlı, məhsuldar, abad görməkdir. Bu arzu ilə yaşayan gənclərimizdən biri də Bahardır. Gənc aqronomun məqsədi, arzusu, amalı bu torpaqları şoranlıqdan təmizləyib, əkinə yararlı, bol məhsul verən cənnətə çevirməkdir. Bu gənc aqronom Bazar çölü düzündə salınmış "Şirinlik" qəsəbəsində üzləşdiyi bütün çətinliklərə, şəraitsizliyə baxmayaraq daha əzmlə çalışır, çadırda yaşamasına belə məhəl qoymadan zəhərli ilanlardan, böcəklərdən qorxmadan, heç vaxt şikayətlənmədən burada yaşayır.

1941-1945-ci illər müharibəsi Zülmxan kimilərinin əlinə fürsət kimi düşmüşdür. İdarənin təchizat rəisi olan Zülmxan “müharibə iştirakçısı” adı altında öz çirkin və mənfur əməllərini həyata keçirirdi. Yazıçı Zülmxanın əməllərini əsər boyu ifşa etmişdir. Əsərin sonunda Zülmxan elədiklərinin cəzasını layiqincə çəkir. Yazıçı əsərdə usta Əziz, Laçın, Pyotr İvanoviç, Xurşud İmanzadə, Əbdüləzəl, Şinılla, Fərrux və s. zəhmətkeş insan obrazları yaratmışdır. Onların zəhməti, əməkləri sayəsində "Şirinlik" qəsəbəsi cənnətə çevrilir, şoran torpaqlar təmizlənir, şumlanır, əkilir və becərilir, Bu əməkçi insanlar ömürlərini, günlərini torpağa bağlayıb, sevinclərini, sevgilərini torpağa verirlər. Səadətlərini, xoşbəxtliklərini

torpaqda tapan bu insanlar dünyada düzlükdən, halallıqdan özgə bir şey tanımırlar. Çünki bilirlər ki, torpaq öz barını və bərəkətin onu əkib - becərənlərdən heç vaxt əsirgəməyib.

Yazıçı əsər boyu Muğan, Mil və Şirvan, Kür-Araz ovalığının, bu yerlərin füsunkar təbiətinin, göz oxşayan mənzərəsinin təsvirini canlı şəkildə əks etdirmişdir. Romanda sadə, zəhmətkeş insanların gündəlik qayğıları ilə yanaşı təsərrüfat məsələlərinin, xalq həyatının, ailə ənənələrinin, əxlaq tərzinin, ümumən köhnəlik və yenilik arasında mübarizənin təsvirinə də xüsusi diqqət verilir. Yeni, azad, ilhamlı kollektiv əmək sayəsində əsrlər boyu istifadəsiz qalan quru və xam, şoran və əkinə yararsız torpaq indi canlanır, yaşıllaşır, bol məhsullu təsərrüfat sahələrinə çevrilir. İnsanlar "təbiətdən mərhəmət gözləmir", onun zəngin sərvət və nemətlərini axtarır, tapır, yaradır və mənimsəyirlər. İnsan əməyi ilə xam torpaqlı rayonlarda bir-birinin ardınca yeni-yeni məskənlər salınır. Dünən səhralarda yan-yana düzülən çadırları bu gün yaraşıqlı, səliqəli evlər əvəz edir, xəstəxanalar, klublar, məktəblər, kino-teatrlar tikilir. İndi "Şirinlik"də, dünənki boz çöllərdə gənc əməkçi və maldarların mexanizator və traktorçuların, fəhlə və zəhmətkeşlərin şən, coşqun əmək həyatı qaynayır. Bu nöqteyi-nəzərdən görkəmli yazıçı və tənqidçi Mir Cəlalın fikri tam yerinə düşür və romanda əks etdirilən həyatı dolğun qiymətləndirir: "...roman geniş xalq həyatını geniş əhatə etməli, nəinki şəxsin, ailənin hətta nəsillərin də taleyini verməli olan böyük ədəbi şəkildir. Roman həm əsri, həm də günü, həm xalqın, həm də bir fərdin taleyini əks etdirir. Müəyyən dövrdə roman qəhrəmanın, hətta nəslin mükəmməl bədii sərgüzəşti, tərcümeyi-halı deməkdir".[1]

Dissertasiyanın II fəsli «**Seyfəddin Dağlı və Cənubi Azərbaycan mövzusu**» adlanır. Bu fəsil iki bölmədən ibarətdir.

II fəslin birinci bölməsi «**Cənubi Azərbaycan həyatı hekayə güzgüsündə**» adlanır. Seyfəddin Dağlı hekayələrinin bir qisminin mövzusunu Cənubi Azərbaycan həyatından götürmüşdür. Sənətkarın bu qrupa daxil olan əsərləri satiradan, yumordan kənardır. Onlar ictimai-siyasi məzmunlu hekayələrdir. Bunlardan «Məşəl», «Qızıl medal», «Bekar Məmmdəli», «Allahqulu», «Əzim kişinin bayrağı» və s. kimi kiçik həcmli, lakin mənalı, zəngin və orijinal təsvir üsullu hekayələri göstərə bilərik.

Müəllifin hekayələrində Cənub mövzusu sadəcə olaraq bir region, məkan haqqında yazılmış əsər kimi meydana çıxmır. Bu hekayələrin, demək olar ki, hamısı bu və ya digər şəkildə Cənubi Azərbaycanda

[1] Mir Cəlal, Pənah Xəlilov. Ədəbiyyatşünaslığın əsasları. Bakı: Çaşıoğlu, 2005, s. 93.

demokratik hərəkatla bağlıdır. Cənub mövzusuna aid olan hekayə qəhrəmanlarının hər birinin öz həyatı, fərdi taleyi olsa da, onlar demokratik hərəkata münasibət, azadlıq ideyaları uğrunda mübarizlik baxımından ortaq taleləri ilə paylaşırlar. Onlar birdən-birə azadlıq uğrunda mübarizənin ön cəbhəsində təsvir olunmurlar. İlk öncə hekayə qəhrəmanlarının cəmiyyətdə, sosial həyatda qarşılaşdıqları ədalətsizliklər, milli ayrıseçkiliklər təsvir olunur və onun qəhrəmanları mövcud durumdan çıxış yolunu isə azadlıq hərəkatına, milli dövlətçilik uğrunda mübarizəyə qoşulmaqda görürlər. Hekayələrin mövzu və problemlərinin oxşar olmasına baxmayaraq, onlar heç də bir-birinin təkrarı kimi görünmürlər. Müəllifin fərdiləşdirmə və tipikləşdirmə qabiliyyəti hekayə qəhrəmanlarının yaşadıqları ümumxalq taleyi və fərdi taleyin təsvirində özünü açıq-aydın şəkildə göstərir. Onun qəhrəmanlarının birinin müəllim, birinin hüquqşünas, birinin isə mühəndis olmasına baxmayaraq, hamısı ictimai-sosial prizmadan vahid, eyni taleyi bölüşürlər. Seyfəddin Dağlının yaradıcılığı fərdi taledən milli-ictimai taleyə keçidi və yaxud da milli-ictimai taledən fərdi taleyə keçidi çox incə və həyati faktlar əsasında təcəssüm etdirir. Bu isə müəllifin öz məqsədinə daha dolğun şəkildə nail olmasına imkan yaradır.

II fəslin ikinci bölməsi «**Cənubi Azərbaycan həyatını əks etdirən roman və povestləri**» adlanır. Şimaldan rus siyasəti, Cənubdan fars boyunduruğu altında əzilən bir millətin təhqir olunmuş övladlarının acı taleyini əks etdirən mövzular, ürəyində namərdlər tərəfindən ikiyə parçalanmış vətən dağı olan Seyfəddin Dağlının təkcə Cənubi Azərbaycan mövzusunda yazdığı hekayələrində deyil, digər janrlarda yazdığı əsərlərində də aparıcı yer tutur. “Kəcil qapısı” romanı da belə əsərlərdəndir.

“Kəcil qapısı” romanında İranda və Cənubi Azərbaycanda imperializmin, müstəmləkəçiliyin və yaramaz ictimai mühitin mahiyyətindən irəli gələn faciələr, eybəcərliklər, özbaşınalılıqlar, zəhmətkeş insanların bütün bunlara etirazı və nifrəti əks olunmuşdur. Əsərin bədii tutumu və sferası genişdir, yəni İranda və Cənubi Azərbaycanda ləngər vuran ictimai qüvvələri, xüsusilə inqilabi qüvvələri, xalq mənəviyyatını təmsil edən insanları müəllif təfsilatı ilə göstərə bilmişdir.

Cəmi bircə il ömür sürməsinə baxmayaraq 1945-ci il dekabrın 21-də qalib gəlmiş və 1946-cı ilin eyni vaxtında silah və qan gücünə yatırılmış Təbriz inqilabinin əhəmiyyəti “Kəcil qapısı” müəllifini dərindən düşündürürdü. Çünki təkcə Cənubi Azərbaycanda, İranda və İraqda deyil, bütün Şərqdə mütərəqqi inqilabi qüvvələrin oyanmasına birinci təkan verən də, məhz bu üsyan olmuşdu. Bu üsyan sübut etdi ki, Təbriz yalnız

cındaxanalardan və bura zorla gətirilən Küşvər kimi məsum balalardan, əxlaqsızlıq bataqlığının daimi sakini olan ajanlardan, bir ayağı gorda olduğu halda öz murdar ehtirasını cilovlaya bilməyən Hacı ağalardan ibarət deyil. Təbrizdə alnıaçıq, mərd oğullar təkcə XX əsrin birinci yarısında üç dəfə üsyan qaldırmış, öz xalqının azadlığı uğrunda ölüm-dirim mübarizəsinə girmiş Səttarxanın başçılığı altında silah götürüb qəhrəmanlığını sübut etmiş, Şeyx Məhəmməd Xiyabani hərəkatı dövründə isə inqilabi döyüş meydanlarında mətinləşmişlər. Təbrizdə, Sərabda, Marağada inqilabın nailiyyətini qoruyan Milli hərəkat bahadırları – Qulam Rza Cavidan, Nurulla Yegani, Azad Vətəni, Qulu Sübhi, general Kəbiri kimi insanlar məhz bu dövrdə yaşamış və mübarizə aparmışlar.

Seyfəddin Dağlı əsərdə xarakter və portret yaratmaq üçün bədii cizgiləri tapıb, yerli-yerində işlətmişdir. Yazıçı xəsisliyi ucbatından arvad almayıb əxlaqsızlığa qurşanan Hacı ağa, əmisi qızının namusunu qorumaq üçün haraya gələn Əjdər, vəzifəsindən sui-istifadə edən Kürən ajan, cındaxanaya başçılıq edən Keçibalası ləqəbli qadın, ərinə göz dağı çəkmək üçün cındaxanaya gəlib düşmüş Cahan xanım, onun şərəfsiz əri ağayi Həmədani kimi insanların obrazlarını ustalıqla yarada bilmişdir.

Seyfəddin Dağlının romanı təkcə Təbriz Milli Hökumətinin necə yarandığını təsvir edən əsər deyil. Roman təsvir edilən dövrdə Cənubi Azərbaycan xalqı məhz belə bir inqilab ərəfəsində yaşadığı üçün, qüvvələr nisbətini düzgün göstərməyi, daha doğrusu, xalqı, zəhmətkeş insanların mənəviyyatını təmsil edən müsbət, işıqlı xarakterləri realistcəsinə əks etdirən əsərdir. Sərabda, Marağada inqilabın nailiyyətlərini qorumaqda böyük mənəvi qəhrəmanlıq nümunələri göstərmiş, edam gecəsi, sabah öldürüləcəyini yoldaşlarından gizlədib zindanda şən nəğmələr oxuyan Qulam Rza Cavidan, öz sinfindən qopub xalq cəbhəsinə keçmiş, Milli hərəkat bahadırlarına çevrilmiş Nurulla Yegani, general Kəbiri, doğma balası gözünün qabağında öldürüldüyü halda düşməndən aman istəməyən, "çinar sınar, ancaq əyilməz" deyə öz mərd ölümü ilə fəxr edən Azad Vətəni, dar ağacının sabunlu kəndiri qırılıb düşdüyü halda onu yenidən boynuna keçirən, "sizin kəndiriniz də çürüyüb" deyə faşist qaragüruhçulara uca bir zirvədən müzəffər bir gülüşlə baxmağı bacaran Qulu Sübhi kimi insanlar məhz Seyfəddin Dağlının təsvir etdiyi dövrdə yaşamış və mübarizə aparmışlar. Bu həqiqəti özü də aydın dərk etmiş müəllif məhz həmin insanlardan birinin surətini çəkməyə təşəbbüs etmiş, lakin ona romanda cəmisi bircə səhifə yer vermişdir. Buna görə də siyasi məhbus Kəbiri barədə romanda deyilənlər yalnız müəllif məlumatından başqa bir şey deyil. Halbuki Kəbiri surətini geniş planda işləyib əsərdəki hadisələrə

bilavasitə daxil etmək, onu xalq işi uğrunda mübarizə aparan bir qəhrəman səviyyəsinə qaldırmaq əsərə güclü işıq sala bilərdi və bu halda "Kəcil qapısı" romanı daha uğurlu alınardı.

Seyfəddin Dağlının dil məsələsində əsas uğuru ondadır ki, o, xalqını, millətini, onun dilini yaxşı bilirdi. Çünki obrazlı və çoxçalarlı dilin əsl yaradıcısı elə xalqın özüdür. Bu baxımdan Seyfəddin Dağlının bədii nəsr dili özünün lakonizmi, orijinallığı, estetik təsir gücü oxucunu ovsunlaması ilə yadda qalır. C.Abdullayev dilin-fikrin obrazlılığından bəhs edərək, bədii dili cilalayan bədii təsvir vasitələrini xüsusi qeyd edir: "Bədii təsvir vasitələrindən istifadə hər bir sənətkarın dünya görüşündən, istedadından, vüsətindən, ideya istiqamətindən, bədii zövq və şəxsi təbiətindən çox asılıdır" .[1]

Seyfəddin Dağlının "Qara qız" povesti də Cənubi Azərbaycan mövzusunda olan əsərlərindəndir. Bu əsərdə də əzilən xalqın naləsi, qadın hüquqsuzluğu, onların ağır əziyyəti, Gilanda, Ənzəlidə, Xoyda, Təbrizdə və bütünlükdə İranda baş verən ictimai-siyasi vəziyyət, aclıq, səfalət təsvir edilir. Əsərdə Təbrizdə və onun ətraf kəndlərində baş verən üsyanlardan, Azərbaycan Demokratik Milli Hökumətinin qurulması və bu az müddətdə görülən işlərdən söhbət açılır: şəhərlər abadlaşır, yetim evləri açılır, teatr binaları tikilir. Lakin şah qoşunları Azərbaycan Milli Hökumətini yıxıb Təbrizdə misli görünməmiş vəhşilik törədir. Quldur dəstələri insanları öldürür, evləri talayır, sənət ocaqlarını viran qoyurlar.

Seyfəddin Dağlının "Bir kolleksiyanın tarixi" povestində isə 1978-ci ildə İranda baş verən hadisələr təsvir olunur. Əsərdə İran və Amerika Birləşmiş Ştatları arasındakı siyasi əlaqələrdən söhbət açılır. Amerikalıların İrandakı ağalıqları, özbaşınalıqları, Məhəmməd Rza Pəhləvinin ölkəni müflis hala salması, günahsız xalqın səfalət girdabında boğulması, yüzlərlə əliyalın insanların meydanlarda güllələnməsi əsərdə ürək yanğısı ilə göstərilmişdir. Mərd və igid oğullar, qocalar və qadınlar meydanlara axışıb piketlər keçirirlər, dövlətə qarşı etiraz edirlər, İran İslam Respublikasının yaranmasını tələb edirlər.

Dissertasiyanın III fəsli **«Dövrün sosial problemləri və satirik üslubun bədii əksetdirmə imkanları»** adlanır. Bu fəsil iki yarımfəsildən ibarətdir.

III fəslin birinci bölməsi **«Seyfəddin Dağlının bədii nəsrində satira və yumor»** adlanır. Görkəmli yazıçının ümumilikdə yaradıcılığı kimi satiraları da sosial-siyasi səciyyəsi ilə seçilən bir epoxada yaranmış və

[1] Abdullayev C. S.Vurğunun sənət dünyası. Bakı: Yazıçı, 1986, c. 302.

əsərlərində bütün bunlar öz əksini tapmışdır. Seyfəddin Dağlının yaşayıb-yaratdığı dövrün ədəbiyyatı özündən öncəki dövrlərin ədəbi dəyərləri ilə qidalanaraq düşdüyü epoxal gerçəkliyin həyat və sənət həqiqətlərini özündə əks etdirir. Lakin təbiidir ki, XX əsrin əvvəllərində satiranın bir janr kimi qısa zamanda çox yetkin bir yaradıcılıq zirvəsinə çatması sonrakı dövrlərdə bu səviyyədə davam etməmişdir.

Satirik üsulla gerçəkliyə yanaşma onun yaradıcılığında sosial mündəricənin zənginliyi ilə də şərtlənir. Yazıçının qaldırdığı problemlər yeni olduğu üçün onların ədəbiyyata gətirilməsinin özündə də bir yenilik, novatorluq tələb edirdi.

Seyfəddin Dağlı canlı obrazları, dadlı-duzlu yumoru ilə həmişə diqqəti cəlb etmişdir. Neçə-neçə felyetonlar, hekayələr, novellalar, miniatürlər, balladalar, yumoristik səhnələr, komediyalar, romanlar müəllifi olan Seyfəddin Dağlı həm də gözəl satirik hekayələr ustasıdır. O, iti qələmi olan satirik yazıçı kimi tanınıb şöhrət qazanmış, öz vaxtında ədəbiyyatımızda bu sahədə böyük xidmətləri olmuşdur.

O, köhnəlmiş, geri qalmış, zamanla ayaqlaşmayan, sürünən mənfi tipləri çox məharətlə, incəliklə ifşa edən, müasirliyi, aktuallığı ilə seçilən yığcam, lakonik, satirik və yumoristik hekayələr qələmə alırdı. Bu satirik hekayələrin hər birində təsvir-təqdim boyaları tünd, kəskin, ifşaçı və inandırıcıdır. Onun hekayələrinin qəhrəmanları satirik surət kimi dolğun və realdır: "Seyfəddin Dağlı hekayələrində kompozisiyanın bitkinliyinə, hadısələrin möhkəm və ardıcıl bağlanmasına xüsusi fikir verir, hekayələrin dili səlis və obrazlıdır. Müvafiq hadisə və hərəkətlərin, ayrı-ayrı xarakterlərin təsviri üçün münasib ifadə və sözlər tapması müəllifin uğurudur".[1]

Seyfəddin Dağlı uzun illər "Molla Nəsrəddin" ənənələrini davam etdirən "Kirpi" satirik jurnalında baş redaktor işləmiş, bu jurnalda rüşvətxorları, vəzifə hərislərini, xalqa zülm və əziyyət verən insanları satira atəşinə tutmuşdur. Onun satirası qamçılayan, sillə vuran, eyni zamanda həm də tərbiyələndirən satiradır. Onda inkişafa, yeniliyə mane olan hər bir kəsi, hər bir faktı tənqidi gülüşə hədəf etmək, satira güzgüsündə göstərmək hissi çox güclü idi.

Seyfəddin Dağlı əsərlərinin mövzu rəngarəngliyinə və forma müxtəlifliyinə xüsusi diqqət yetirirdi. O, çox qüvvətli müşahidə qabiliyyətinə malik idi. Seyfəddin Dağlının ailə-məişət mövzusunda yazdığı kiçik satirik hekayələrdə çox vacib mətləblərə toxunurdu. O,

---

[1] Ə.Gülnarə. Sözündə doğru adamları sevərdi. "Ədəbiyyat", 1996, 6 sentyabr

hekayəni bədii nəsrin məsuliyyət tələb edən kiçik janrı hesab edir və sınaqlardan çıxmış belə bir həqiqəti şərtsiz qəbul edirdi.

Bu hekayələr içərisində "Göyçək oğlan" diqqəti daha çox cəlb edir. Göyçək oğlan əməyi sevməyən, yüngül qazanc dalınca qaçan, pula, dövlətə həris bir tüfeylidir. O, başqasının hesabına yaşamaq üçün varlı-karlı qız axtarmağa başlayır. Nəhayət, özündən bir neçə yaş böyük olan Gərək xanımla evlənir.

Seyfəddin Dağlı bir yazıçı kimi əsərlərində hər zaman gənclərimizi tərbiyələndirmək, onlara düz yol göstərmək məqsədi güdmüşdür. Yazıçı əsərin sonunda göstərir ki, "Göyçək oğlan" öz səhvini başa düşür və atasının sözləri sanki onu qəflət yuxusundan ayıldır. Hadisələrdən sonra "Göyçək oğlan" atasının evindən arvadının evinə gətirdiyi köhnə, nimdaş kostyumunu, kepka və ayaqqabılarını tapıb geyir, səhər tezdən xəlvətcə stansiyaya gəlir və Bakı - Sumqayıt avtobusuna minib kimsənin onu tanımadığı təzə şəhərə gəlir. Əsərin sonunda Seyfəddin Dağlı göstərir ki, bu cavan oğlan yeni zavodların birində usta şagirdi vəzifəsində işləyir, gecə ümumi yataqxanada yatır, səhər gənc iş yoldaşları ilə birlikdə işləməyə gedir. Yeni şəhərdə onun üçün yeni həyat başlayır.

"Qonşumuz gənc bəstəkardır" hekayəsində isə müəllif gənc bəstəkarın obrazında xalq musiqisindən uzaq düşmüş, milli irsə hörmət bəsləməyən, klassik musiqimizin ənənələrindən uzaqlaşıb, saxta, formal orijinallığa meyl edən "bəstəkarların" obrazını yaratmağa çalışmış, ömrü boyu xalqın adət və ənənələrinə, musiqisinə bağlı olan qoca xanəndə obrazı ilə əsl sənət və sənətkara xas olan milli bəstəkarlıq ənənələrini ümumiləşdirmişdir. Seyfəddin Dağlı bu obrazın daxili boşluğunu ictimai duyğulardan, vətəndaşlıq qayğılarından, milli ruh və milli zövqün tələb və prinsiplərindən uzaq düşməsi, fərdi şöhrət maraqlarına qapanıb qalması ilə əsaslandırır və onu səciyyəvi bədii boyalarla ifşa etməyə nail olur.

"Səlim müəllim" hekayəsində Səlim müəllimin bütün çürük mənəviyyatı, cahilliyi və savadsızlığı, gülünc və yaramaz hərəkətləri ifşa olunur. Seyfəddin Dağlı bu obrazın zövqsüzlüyünü, özündən razılığını, həyatdan geriliyini və ən əsası daxili boşluğunu təbii, bədii həyat səhnələri ilə ifşa etməyə nail olmuşdur. Ümumiyyətlə, bu hekayədə savadsız, elmdən xəbəri olmayan qeyri-peşəkar "pedaqoqlar" ciddi tənqid atəşinə tutulur. Müəllif bu hekayədə sağlam müəllim-şagird münasibətlərinin, pedaqoji prinsiplərin keşiyində dayanır. Yeni nəslin tərbiyyəsində yaranan boşluğun, neqativ halların, o cümlədən səviyyəsiz, üzdən iraq, təsadüfi müəllimlərin ifşası ilə yanaşı, dolayısı ilə maarif və mədəniyyətin, sınaqlardan çıxan, daşlaşmış əxlaq normalarını müdafiə edir.

Məlumdur ki, satirik əsərlərdə tipik hadisələri və obrazları ümumiləşdirmək, cəmiyyətin inkişafına mane olan mənfilikləri və nöqsanları mübaliğə və kəskinləşdirmə yolu ilə göstərmək əsas şərtlərdəndir. Müəllifin "Xalaoğlumun təri" hekayəsindəki qəhrəman məhz bu cəhətdən çox qüvvətli çıxmışdır. Onilliyi qurtardıqdan sonra "istirahət etmək" fikrinə düşən, "qərb rəqsləri" dərnəyinə yazılan, "başına xüsusi dəllək qulluq edən", eybəcər modalar əsasında tikilmiş kostyumlar axtaran, xarici maşın almaq iştahasına düşən, hətta xəstələnən zaman xarici dərman tələb edən bu xalaoğlunun həyatı, hərəkətləri bədii ümumiləşdirmələrlə, şişirtmə və süjeti kəskinləşdirmə yolu ilə verildiyindən oxucunun yaddaşından silinmir.

Seyfəddin Dağlı bəzi əsərlərində qüvvətli satiranı keçici, yüngül yumor ilə əvəz edir. Məsələn, müəllif həkim Məsimin bəzi hərəkətlərini təsvir edərkən karikaturaçılığa enmişdir. O bu hekayədə yüngül effekt ardınca qaçmış, mübarizə apardığı mənfi hadisələri, personajları sonadək amansız şəkildə ifşa etməyə nail olmamışdır. Bu sözləri onun "Azar", "Haradasan?" hekayələri haqqında da demək olar.

Seyfəddin Dağlı əsərdən əsərə inkişaf edən sənətkar idi. Təbiətində satiraya meyil güclü olduğu üçün bədii gülüşə daha çox bel bağlayırdı. "Kirpi" jurnalında redaktor işlədikdən sonra satira və yumor hissi, milli iz daha da gücləndi. Bu, həm də onun vətəndaşlıq mövqeyi ilə bağlı idi.

Yazıçı "Şakərlilər" kitabında toplanmış "Nikbin", "Bədbin", "Laqeyd", "Vasvası", "Deyingən", "Böhtançı", "Rəhimdil", "Yaltaq", "Xəbərçi", "Yalançı", "Zarafatcıl", "Qaradinməz" və s. hekayələrində insan xarakterinə və psixologiyasına xas olan xüsusiyyətləri açıb göstərmişdir. Bu hekayələrdə xarakterlərindən asılı olaraq adamların bir qismini yumoristik boyalarla, digər qismini isə satirik cizgilərlə təsvir etmişdir.

Seyfəddin Dağlının gülüşü ciddi, mənfi qəhrəmanları nifrətəlayiq, müsbət sürətləri nümunəvidir. Onun qələmə aldığı hadisələr təbii, münaqişələr həyati, ifadə etdiyi ideyalar işıqlıdır. Müəllif söz oynadıb gülüş yaratmağa çalışmır, bu, vəziyyətlərdən, hadisələrin məntiqindən, tiplərin daxili aləmindən doğur. Yazıçı xalqımızın satirik təfəkkür xəzinəsindən bacarıqla faydalanır. Məsələn, ailə-məişət mövzusunda yazılmış "Yaylaq qayğıları" əsərində yazıçı cəmiyyətdə baş verən hadisələri bir ailənin fonunda açıb göstərməyə çalışmışdır. Bu ailənin üzvlərinin: Şıxzaman, Şahsənəm və Şahbudağın başına gələn hadisələri yazıçı həm yumor, həm də təəssüf hissi ilə oxuculara anlatmaq istəmişdir. Burada yazıçı ancaq ailə-məişət məsələlərinə toxunmamış, bəzi idarələrdəki süründürməçilik, əyrilik, səhlənkarlıq da gülüş obyektinə çevrilmişdir.

Ailə və məişət, insan və mənəvi-əxlaqi axtarışlar mövzusu sözsüz olaraq sənətkarın müasir həyatla, yaşadığı indiki zamanla daimi əlaqəsindən asılıdır: "Məişət böyük sınaqdır. Onun haqqında "ağız büzərək" danışmaq, onu həyatın lazımsız tərəfi hesab etmək doğru deyil. Axı, məişət insan mənəviyytının sınaq yeridir".[1]

Tənqidi gülüş və incə yumor Seyfəddin Dağlının "İpək gül" kitabındakı hekayələrinin başlıca məziyyətlərindəndir. Yazıçı satirik əsərlərin bir çoxunda qrotesk üsulundan istifadəyə, hadisələri fantastik şəkildə verməyə, obrazları öz təbii vəziyyətindən çıxarıb qəribələşdirməyə, ecazkar göstərməyə meyil edir. Bu xüsusiyyətlər "Vergülağa Nöqtələrov" və "Absətəlini avsayt öldürdü" əsərlərində aydın nəzərə çarpır. "İpək gül" kitabında verilən "Şöhrət ölüsü", "Tamah dişi" və s. hekayələrində də biz bu xüsusiyyətləri müşahidə edirik.

"İpək gül" kitabında toplanmış səkkiz novellanın aktuallıq, yığcamlıq başlıca məziyyətlərindəndir. İstər novellalarda, istərsə də Türkiyə və İran həyatından alınmış kiçik satirik parçalarda yazıçı təəssüratının başlıca cəhətlərini artıq bir şey demədən, bədiiliyin şərtlərinə xələl gətirmədən əks etdirir. Türkiyə novellaları qısa və yığcamlığı, mənalı məndəricəsi ilə fərqlənir. Həmin novellaların təsir gücü janrın xüsusiyyətlərinə uyğun olaraq bədii ifadə vasitələrinin düzgün seçilib, yerli-yerində tətbiq olunmasındadır.

Seyfəddin Dağlının satirik hekayələri, povest və romanları aydın, sadə, oxucunun başa düşə biləcəyi bir dildə yazılmışdır. Bu əsərlərdə bədii dil ümumən səlisdir, obrazlıdır. Yazıçı hadisə və obrazların təsvirində xalq dilindən istifadə etməyi, hadisə və obrazların səciyyəsinə uyğun ifadələr tapmağı bacarır. Əlbəttə, yazıçının söz seçmək məharəti yalnız müəllif təhkiyəsinə aid deyildir. Sənətkarın əsil söz qüdrəti eyni zamanda bədii obrazların nitqlərində də meydana cıxır. Müəllifin yazı üslubunda tənqidi gülüş üçün əlverişli olan komik ifadələr, sözlər, təsvirlər aparıcı yer tutur. Həm müsbət, həm də mənfi qəhrəmanlar əsasən öz xarakterinə müvafiq danışdırılır.

Seyfəddin Dağlının belə mənfi qəhrəmanlarından biri də «Kim kimi basdırdı» satirik povestindəki qorxaq, qumarbaz, xəsis, imansız, içki düşgünü, avara, ömrünün çox hissəsini həbsxanada keçirmiş Mir Daxıl obrazıdır. Onun bəd xasiyyəti ucbatından anası Seyidxatun qubarlanıb ölür. Arvadı və qızları səfalət içində yaşayırlar. Qəmxarə və onun himayəsində olan iki körpə qızı – Ceyran və Hicran Mir Daxılın heç yadına da düşmür.

[1] Храпченко М.Б. Творческая индивидуальность писателя и развитие литератур. Москва: Советский писатель, 1975, с. 46.

Həbsxanadan azadlığa çıxan Mir Daxıl qumarı atır və dükan işlətməyə başlayır. Amma indi o, iki yeni pis vərdiş qazanır: bunlardan biri oğurluq, digəri isə xəsislik. Seyfəddin Dağlının bu əsərini oxuyarkən Mirzə Fətəli Axundovun «Hacı Qara» və Onore de Balzakın «Qobsek» əsərləri yada düşür. Mir Daxıl da Hacı Qara kimi xəsisdir, Qobsek kimi var-dövlət içində ac ölür.

Seyfəddin Dağlının "Absətəli avsaytdadır" və ya "Absətəlini avsayt öldürdü" yumoristik povestini oxuyarkən insanın üzünə gülüş qonur və gülə-gülə düşünməyə məcbur olur. Povest "Antifutbol" azarkeşi Absətəli haqqındadır. Absətəli on ildir ki, Suğra xanımla ailə həyatı qurmuşdur və onların Gülqulu adlı oğlanları da dünyaya gəlmişdir. On beş il kənddə yaşayandan sonra şəhərə köçmüş Absətəlidə futbola qarşı nifrət elə gəldiyi ilk vaxtlardan yaranmışdır. Absətəli bunu gizlətmirdisə də, qonşusu Gəncumov guya futbola olan marağını hər vəchlə ona sübut etməyə çalışırdı. Lakin onun futbola və stadiona olan əsl marağı başqa idi. Əslində Gəncumov arvadıyla şətrləşmişdi ki, o, arvadını stadiona getməyə qoyan gün ər də evdə araq içə biləcəkdi. Absətəlinin işlədiyi müəssisədə də belə "azarkeşlər" çox idi. Məsələn, Şahtağı, Pənahlı, Ağatalıb, idarənin qoca mühasibi. İşlərini itirməmək üçün məcburən futbol azarkeşi olmuşlar. Məhz buna görədir ki, Seyfəddin Dağlı əsərdə futbol meydançasını xəstəxanaya və buradakı azarkeşləri isə qəribə xəstələrə bənzətmişdi.

Seyfəddin Dağlının "Vergülağa Nöqtələrov" adlı satirik romanında əsərin qəhrəmanının dünyaya gəlişindən tutmuş vəfatına qədərki mənasız həyatı tam, ətraflı göstərilmişdir. İlk məktəb illərindən başlayaraq "Dayımın canı sağ olsun!"- deyə bütün işlərini görən, ürəyində sevgiyə, məhəbbətə yer olmayan bu insan hətta evdə ailəsi-arvadı və uşaqları ilə də tabeçiliyində olan işçiləri kimi davranırdı.

Seyfəddin Dağlı bu romanda savadsızlıq, elmsizlik, vəzifə və hakimiyyətə hərislik, kütlük, mənəviyyatsızlıq, lovğalıq və bu kimi pis, naqis, neqativ cəhətləri kəskin satira atəşinə tutmuşdur. Romanın dili sadə və oxunaqlıdır, sujet xətti və kompozisiya zəif olsa da, satirik roman janrının tələblərinə müəyyən qədər cavab verir. Burada yazıçının əsas məqsədi bütün satirik povest, felyeton və hekayələrində olduğu kimi, mənfi ünsürləri satira atəşinə tutmaq, müasir gəncləri maarifləndirmək, tərbiyələndirmək, pis vərdiş və xasiyyətlərdən uzaqlaşdırmaq, yaxşı mənada dünyaya baxışlarını dəyişmək, insanlarla düzgün davranış qaydaları öyrətməkdir.

III fəslin ikinci bölməsi **«Seyfəddin Dağlının komediyaları. Komizm və ideal axtarışları»** adlanır. Seyfəddin Dağlının yaradıcılığında

komediya janrının mühüm yer tutması təbii bir haldır. O, sənətkar və zaman, yazıçı və vətəndaşlıq borcu prinsiplərinin tələblərinə uyğun olaraq komediya janrının mayasını təşkil edən bədii gülüşdən məharətlə istifadə edən sənətkar idi. Onun komediyalarında surətin inkişafı, xarakterin müəyyənləşməsi, eləcə də konflikt məhz komik mübarizə ilə həll olunur.

Seyfəddin Dağlının "Təzə gəlin" adlı əsəri, hər şeydən əvvəl, öz məqsəd aydınlığı ilə diqqəti cəlb edir. Pyesdə hadisələr Abşerondakı gülçülük sovxozlarının birində cərəyan edir. Komik səhnə epizodları, təbliği xarakterə malik olan hadisə, əhvalat və vəziyyətlər tamaşaçıları maraqlı təbiətə malik insanlarla tanış edir. Pyesdə diqqəti cəlb edən obrazlardan biri Türbətəlidir. Türbətəli yenilikçidir, qabaqcıl briqadirdir. Təzə qızılgül növü yetişdirir. Vətəndaşlıq borcunu layiqincə yerinə yetirməyə çalışan bu insan eyni zamanda xurafata inanır, molla Manafın cəhənnəm qorxusu barədə uydurduğu şaiyələrdən vahimələnir. Buna görə də qış fəslində Abşeron şəraitində, açıq havada yetişdirdiyi yeni qızılgül kollarını molla Manafın təkidi ilə məhv etmək istəyir. Lakin hadisələrin sonrakı inkişafı, xüsusən qəlbində oyanan məhəbbət hissi Türbətəlini bu yanlış yoldan qaytarır, mənən kamilləşdirir.

Əsərdəki lirik məhəbbət xətti Nemət və Ətirgül obrazları ilə daha aydın verilmişdir. Bu obrazlar vasitəsilə dramaturq gənclərimizin işgüzarlığını və səmimi sevgi duyğularını qələmə almışdır. Sovxoz direktoru Nemətlə Ətirgül arasında olan saf məhəbbət eyni zamanda onların gündəlik işinə kömək edir. Seyfəddin Dağlı əsərin qəhrəmanı Ətirgülün mənəvi aləmini oxuculara açıb göstərə bildiyi kimi, onun səmimi məhəbbətini də inandırıcı cizgilərlə vermişdir.

"Təzə gəlin" əsərinin diqqəti cəlb edən cəhətlərindən biri də budur ki, pyesin məzmunu sadə, milli koloriti güclüdür. Nemətlə sevgilisi Ətirgül arasındakı anlaşılmazlıq dramaturq tərəfindən təbii hadisələrlə verilib. Situasiya aydındır, vəziyyət məhz Seyfəddin Dağlıya məxsus zərif yumorla ifadə edilib. Burada satirik konflikt, hissi o qədər də güclü deyil. Bu gülüşdə müəyyən qədər kədər də var. Gülüşün hədəfi olan insanlar əslində gülüşün mənbəyi olan zamanənin təmsilçiləridir. Odur ki, "Təzə gəlin"dəki əksər obrazların psixoloji həyəcanları, düşdükləri mühitin fikir və düşüncələrinin davamı kimi səslənir. Seyfəddin Dağlının qənaətlərinə görə bədii gülüşlə əhatə olunan, idealın qələbəsini təmin etməyə yönələn mübarizənin təmsilçiləri tənqid olunan insanlar olsalar da, əsas obyekt mövcud zaman – şəraitdir.

Seyfəddin Dağlının "Yaylaq qayğıları", "Kim kimi basdırdı" povestləri, "Mənziliniz mübarək", "Kölgələr pıçıldaşır", "Oyun bitdi"

pyesləri, “Ondatra sövdəsi”, “Güləndağ məzhəkəsi”, “Arxada döyüş”, “Arvad deyən oldu”, “Dəllal”, “Əziz yadigar”, “Əks alınmadı”, “Allahı aldatdı, iblisə aldandı” və bir çox hekayələri oxucuların diqqətini cəlb etmişdir.

Seyfəddin Dağlının böyük satirik Əziz Nesinə ithaf olunan “Türk novellaları”nda dörd novellası - “Vitrindəki şüarda nə yazılmışdır”, “Kəndə qəzet nə vaxt gəldi?”, “Qonaq niyə dava saldı”, “Eşşək nəyə güldü” toplanmışdır. Bu novellalarda İstanbul, Bursa, Ankara və Türkiyənin bir çox şəhər və kəndləri təsvir edilir. Həmçinin Türkiyəyə gələn amerikalı, avropalı, almaniyalı turistlərin yekəxanalığı, cibi dolu bu turistlərin yerli vətəndaşlarla kobud davranışları tənqid olunur. Şəhərdə dükan sahiblərinin əcnəbilərə baha qiymətə mal satmaq üçün necə alçaldıqları, kəndlərin güzəranı ağır vəziyyətdə olduğu halda şəhərdə yaşayan varlı dul qadınların qəzetlərdə ər axtarmaları barədə verdiyi elanlar yazıçının gülüş hədəfinə çevrilir.

Bundan başqa yazıçının radio efiri üçün yazdığı “Reportaj rəfi”, “Sərçələr”, “Tarla düşərgəsində”, “Molla” və s. radio novellaları da dinləyicilərin könlünü oxşamışıdır. Bu novellalarda yazıçı sadə xalqın gündəlik problemlərini, məişət qayğılarını, yalançı mollaların xalqı aldatmasını tənqid edirdi.

Zamanı və müasir insanın mənəvi aləmini, hissi-idrakı səviyyəsini yüksək bədii formada, psixoloji-dramatik planda ümumiləşdirmək cəhətdən Seyfəddin Dağlının “Mənzilimiz mübarək” pyesi həm yazıçının yaradıcılığında, həm də müasir Azərbaycan dramaturgiyasında yeni hadisə idi. Dramaturq bu əsəri ilə cəmiyyətin mənəvi inkişafı və tərbiyəsində, yayılma qorxusu törədən və yayılmaq ərəfəsində olan hər cür nöqsana qarşı mübarizə aparmaqda komediya janrının üstünlüyünü, böyük imkanlara malik olduğunu yaxşı bilirdi.

Seyfəddin Dağlının “Kölgələr pıçıldaşır” komediyası da müasir mövzuya, cəmiyyətin inkişaf axınına əngəl olan tüfeylilik, formalizm, süründürməçilik və digər naqis cəhətlərə qarşı mübarizəyə həsr olunmuşdur. İctimai, əxlaqi nöqsanların yaranması və yayılmasına səbəb olan amillər, laqeydlik üzündən sərbəst buraxılan antipodlar pyesin konfliktini və əsas tənqid hədəfini təşkil edir. Burada da komikliyin – gülüşün əsasında subyektiv, cılız hisslərlə irəli getməyə çalışan, özlərindən razı olan yekəxana Buludxanov, Rüstəm Zaloviç kimi insanlar gülüşə hədəf olurlar. Komediyanın müsbət idealını təmsil edən, mənəvi təmizliyi hər şeydən üstün tutan, axıra qədər ona sadiq qalan Sabayel obrazında Seyfəddin Dağlı həyatın öz axarı ilə davam etdiyinə inamını, “Nahaq qalxar, yerimək”

məsəlinə münasibətini bildirmək istəmişdir.

Digər əsərlərində "Sevdagül və Şarlotta", "Şakərlilər", "Sabiqlər" kimi ekran əsərlərində də müəllifin həm güldürən, həm də düşündürən satirik dəst-xətti açıq-aydın duyulur.

Ümumiyyətlə, müasirlik, tamaşaçısının və oxucunun zövqünü oxşamaq, qəlbindən xəbər vermək ənənəsi Seyfəddin Dağlı nəsrinin və dramaturgiyasının başlıca qayəsini təşkil edir. Onun qələmindən çıxan hər bir əsər duzlu, güldürücü və düşündürücüdür. Yumorist və satirik olmaq bacarığı hər qələm sahibinə qismət olmur. Seyfəddin Dağlı Azərbaycan bədii nəsri və dramaturgiyasında dərin iz qoymuş ədiblərimizdəndir.

«Nəticə»də dissertasiyanın ayrı-ayrı fəsillərində irəli sürülən fikir və mülahizələr ümumiləşdirilmişdir.

**Mövzu ilə bağlı müəllifin aşağıdakı məqalələri dərc olunmuşdur**:

1. Seyfəddin Dağlının hekayələrində Cənubi Azərbaycan mövzusu // Dil və ədəbiyyat. Nəzəri, elmi-metodik jurnal, Bakı, 2004, № 4 (42), s. 144-145

2. Seyfəddin Dağlının son romanı – «Şirin duz» // Elmi axtarışlar. Bakı: Səda, 2005, № 15, s. 329-334

3. Seyfəddin Dağlının «Bahar oğlu» // Dil və ədəbiyyat. Nəzəri, elmi-metodik jurnal, Bakı, 2006, № 5 (53), s. 93-94

4. Seyfəddin Dağlı satirik hekayə ustası kimi // Filologiya məsələləri. Bakı, 2007, № 8, s. 233-239

5. «Kəcil qapısı» romanında Cənubi Azərbaycan gerçəkliyinin bədii inikası // Dil və ədəbiyyat. Nəzəri, elmi-metodik jurnal, Bakı, 2008, № 6 (66), s. 117-119

6. Seyfettin Dağlı'nın mevzusunu devrinden aldığı eserleri // Kültür evreni. Uluslararası sosyal bilimler dergisi. Türkiyə, Ankara, 2009, № 2, s. 243-248

7. Dövrün sosial problemləri və satirik üslubun bədii əksetdirmə imkanları / Gənc tədqiqatçıların ümumrespublika elmi konfransı. Bakı, 2010, 6-7 may, s. 533-535

8. Seyfəddin Dağlının povestləri / Abbas Zamanovun 100 illik yubileyinə həsr olunmuş «Müasir Azərbaycan filologiyası: axtarışlar, problemlər, perspektivlər» Respublika elmi konfransının materialları (14-15 noyabr 2011-ci il). Bakı: Elm və Təhsil, 2011, s. 433-440

9. Сатирический смех в повести Сейфаддина Даглы «Бывшие» // «Вопросы филологической науки» материалы III международной научной конференции 18 мая 2012 года, Санкт-Петербург, 2012,

с. 13-15

10. Критика невежества в комедии Сейфеддина Даглы «Невеста» // Концептуальные проблемы литературы: художественная когнитивность. Ростов-на-Дону, 2014, № 7, с. 85-88

11. Seyfəddin Dağlı nəsrinin səhnə variantları // Gəncə Dövlət Universitetinin Elmi Xəbğərləri, Fundamental, humanitar və təbiət elmləri seriyası, № 3, Gəncə, 2014, s. 89-94

**С.Д.Гусейнова**

# ПРОБЛЕМА ХУДОЖЕСТВЕННОГО ОТРАЖЕНИЯ ИСТОРИЧЕСКОЙ И СОВРЕМЕННОЙ ДЕЙСТВИТЕЛЬНОСТИ В ЛИТЕРАТУРЕ (на основе творчества С.Даглы)

## Резюме

Диссертационная работа посвящена одному из актуальных вопросов современного литературоведения - проблеме художественного отражения исторической и современной действительности в литературе. Объектом исследования здесь является творчество Сейфеддина Даглы, представляющее собой значительный этап в истории развития азербайджанской литературы XX века.

Диссертация состоит из введения, двух глав, заключения и списка использованной литературы. Во введении обосновываются актуальность темы, объект, предмет, цель и задачи, научная новизна, теоретическая и практическая значимость исследования, а также положения, выносимые на защиту.

В первой главе диссертации - «Историческая правда и современность позиции писателя», состоящей из четырех параграфов, раскрывается сущность понятий «художественная историография», историческая тема, исследуются различные аспекты взаимоотношений истории и беллетристики, среди которых главное место занимает художественно-эстетическое осмысление исторических событий. Здесь объектом исследования являются такие проблемы как творчество и действительность в контексте современности, историческая тема в творчестве С.Даглы, современная действительность и историческая правда в творчестве С.Даглы. Подчеркивается, что в художественной литературе такие концепты как Человек, История, Время становятся предметом поэтического мышления.

Вторая глава – «С.Даглы и тема Южного Азербайджана» - посвящена исследованию таких проблем, как трудности быта и жизни наших соотечественников, нарушение прав человека, национально-освободительное движение и других вопросов, освещенных в произведениях писателя.

Как в рассказах, повестях, так и в романе С.Даглы на данную

тему прослеживается общее для всех этих произведений содержание – связь с демократическим движением в Южном Азербайджане. Каждый герой повести анализируется в отдельности и в зависимости от профессии или социального положения.

Третья глава диссертации - «Социальные проблемы эпохи и возможности художественного отображения сатирического стиля» - посвящена исследованию сатирического и комического отображения действительности в творчестве С.Даглы, а также проблеме поиска автором жизненного идеала. Здесь подробно анализируются главным образом сатирические и комические особенности созданных автором романов, повестей, пьес, а также комедий, радионовелл, телеспектаклей, поставленных по его произведениям. Отведено место изучению переводческой деятельности. С.Даглы. Подчеркивается, что переводы автора отличаются простотой языка и стиля, максимально приближенными к тексту оригинала.

В ходе исследования было выявлено, что такие традиционные художественные критерии как современность, учет вкусов читателя и зрителя, поиски путей совершенствования личности и общества являются изначально присущими прозе и драматургии Сейфеддина Даглы.

В заключении обобщаются выводы исследования.

**S.D. Huseynova**

## PROBLEM OF ART FELEXION OF THE HISTORICAL AND MODERN REALITY IN THE LITERATURE
### (On the basis of S.Daghly`s creativity)


### SUMMARY

The thesis is devoted to one of the actual quetions of modern literary criticism:a problem of reflexion of the historical and modern reality in the literature. The S.Daghly`s creativity is the object of research and representing considerable stage in history development of 20th century Azerbaijani literature.

The dissertation consists of the introduction, three chapters, the conclusion and the list of the used literature. İn introduction, the theme urgency, object, a cubject, the purpose and problems, scientefic novelty, the theoretical and practical importance of research, and the thesises which have taken out on the protection.

İn the chapter I of the dissertation ("The historical truth and the writer position's modernity") consistsing of four paragraphs, reveals, essence of consepts "the art historiography", "a historical theme" are investigated various of mutual relations of history and a fiction among which the main place occupies is art aesthetic judgment of historical events. Here object of research are such problems, as creativity and the modern Azerbaijan.

The chapter II – "S.Daghly and the Southern Azerbaijan theme" – is devoted to researching of such problems as difficulty our compatriots, life, the human low disturbance, the nationalist-libertaiting motion and other questions, which were lighting in the writer's works.

In the S.Daghly's roman as well as in his stories om this theme we can see common contents all of these works – a relation with the democratic motion in the Southern Azerbaijan each of other heroes of stories is analised particularly, and with his profession or social status.

It has underlined that in fiction such concepts as the Person, the History, and Time become a subject of poetic thinking.

The chapter III of the dissertation ("Social problems of epoch and possibility of art reflection of a satirical and comic method") is devoted to researching of satirical and comic display of reality in S.Daghly`s creativity, and a problem of searching by the author of a vital ideal. Here

satirical and comic features of the novels created by the author, stories, plays, and comedies, radio short stories, the teleplays put on its products are in detail analyzed mainly. The special place has taken to studying of the author are differ simplicity of language and the style, as much as possible approached to the original text.

In the conclusion part of the research are generalised main results of the thesis.

**МИНИСТЕРСТВО ОБРАЗОВАНИЯ**
**АЗЕРБАЙДЖАНСКОЙ РЕСПУБЛИКИ**
**БАКИНСКИЙ ГОСУДАРСТВЕННЫЙ УНИВЕРСИТЕТ**

***На правах рукописи***

**СЕВИЛЬ ДУНЬЯМИН кызы ГУСЕЙНОВА**

# ПРОБЛЕМА ХУДОЖЕСТВЕННОГО ОТРАЖЕНИЯ ИСТОРИЧЕСКОЙ И СОВРЕМЕННОЙ ДЕЙСТВИТЕЛЬНОСТИ В ЛИТЕРАТУРЕ
**(на основе творчества С.Даглы)**

**5716.01 – Азербайджанская литература**

## А В Т О Р Е Ф Е Р А Т

**диссертации на соискание ученой степени доктора философии по филологии**

**БАКУ – 2015**